19 may /2021

# Dünya və milli teatrımızda iş metodikalarının rəngarəngliyi

Teatr rejissurası aktyor oyununu istiqamətləndirən, danışıq intonasiyasını və səhnə mizanlarını – hərəkətlərini quran yaradıcı bir fəaliyyətdir.

Teatr özünün inkişaf tarixinin bütün mərhələlərində kütlələrin estetik və etik tərbiyəsində mühüm vasitələrdən biri kimi çıxış etmişdir.

Hər bir dövrün teatrı yaşadığı və fəaliyyət göstərdiyi zamanın, quruluşun ideyalarının təbliğatçısı, ideoloji silahı rolunu oynamışdır. "Sənətkar öz dövrünün düşünən beyni, eşidən qulağı və görən gözüdür" (M.Qorki).

Rejissor sənətində əyləndirmə, yüngüllük meylləri olmamalıdır. Bu meyllərin tamaşanın ümumi həllində və aktyor oyununda özünü göstərməsi əsərin ideya və məzmununun qavranılma dərəcəsini azaldır, onu yüksək fikirlər və hisslər təbliğ edən bir tərbiyə ocağı olmaqdan məhrum edər.

Müasir dövr istər dünya, istərsə də milli teatrımıza öz təsirini göstərir. Artıq 70-ci illərdən sonrakı dövrün teatr xadimləri yeni konseptlər üzərində çalışır, klassik dramaturgiya və klassik teatr terminlərindən azad olmağa səy göstərirlər. Bu baxımdan 70-ci illərdən sonra dünya mədəniyyətində Eujenio Barbanın adına rast gəlirik. O, 80-cı illərin əvvəlində "Teatr antropologiyası" adlı elmi konsepti ilə diqqəti cəlb edir. Öz yaradıcılığı dövründə pre-ekspressivlik səviyyəsini öyrənən E.-Barba E.Qrotovskinin tələbəsi olmuşdur. Onun öyrəndiyi "pre-ekspressivlik" səviyyəsində gündəlik mövcudatdan fərqlənən empirik cismin canlı cismə çevirilməsindən bəhs edilir.

E.Barbanın öyrəndiyi bu sistemdə aktyorun fiziki və mental enerji ilə işləməsi, eyni zamanda həmin enerjinin idarəedilməsi öyrədilir. Onun yaratdığı konsept bir vaxtlar Moskva Bədaye Teatrında formalaşan rejissor peşəsinin klassik mənasını da aradan çıxartmağa müvəffəq olur.

XX əsrin əvvəllərindən 50-ci illərədək dünya tarixinə G.İ.Gürciyev ("Dördüncü yol təlimi"), Piter Bruk, Antonen Arto kimi adlar düşür. G.İ.-Gürciyev ömrünün sonunadək sufizmi və bir çox cərəyanları dərindən öyrənir, sakral rəqsin sirlərini araşdırır. Onun yaratdığı "Dördüncü yol təlimi" bugünkü gündə də geniş maraq dairəsindədir və bir çox Avropa teatrlarında onun adına müxtəlif dərnəklər fəaliyyət göstərirlər.

Dünya mədəniyyətində K.S.Stanislavski ilə yanaşı Antonen Arto adına da tez-tez rast gəlmək olar. Antonen Arto "Qəddar teatrın" və ya "kryuotik" teatr konseptinin yaradıcısıdır. O, 50-ci illərə qədər yaşamış və ömrünün böyük hissəsini öz konseptinin formalaşmasına həsr etmişdir. Arto hesab edirdi ki, qəddarlıq yaradıcılıq aktının mahiyyətidir. O, öz teatrında kobud və amansız teatrın formasını önə çəkir. Onun fikrincə səhnə və dramaturq fikri tamaşaçı ilə teatr arasındakı sehri pozur. Onun teatrında aktyorlar heroqliflərə uğurla çevrilə bilirlər.

Antonen Artonun fikirlərini sonradan Y.Qrotovski, A.Xodorovski, P.Bruk öz yaradıcılıqlarının əsas qayəsinə çevirə bilirlər.

Qərb teatr sənətində mim teatrının sənətkarı kimi tanınan Etyen Dekru adına rast gəlinir. O, Marsel Marsonun bir vaxtlar Avropada yaratdığı mim teatrının layiqli davamçılarından hesab edilir. Sənətkar öz dövründə "jestlər sənətinin yeni solfecio"sunu işləyir. O, aktyorla iş prosesində sözdən, kostyum və dekorasiyadan imtina edir, aktyor ifadəliliyi vasitələrini ön plana çəkir. İncəsənətin sintezinden imtina edən E.Dekru Pantomim hərəkətlərin yeni məktəbini yaradır.

Dünya teatr tarixinə nəzər salsaq XX əsrin ikinci yarısında "Pikkolo-teatrı"nın təsisçisi İtalyan teatr rejissoru Djordjo Streler adına rast gələrik. O, özünü Jak Koponun, Lui Juvenin və B.Brextin davamçısı hesab edirdi. Özünəməxsus üslubda tamaşalar hazırlayan Djordjo Strelerin aktyorla iş prosesi qeyri-adi idi. Belə ki, o, öz iradını aktyorlara bildirmək üçün onlara məktub yazır, həmin məktublarda giley-güzəranını açıq şəkildə bildirirdi.

İtalya teatrında növbəti rejissor Luka Ronkoni 60-cı illərdən eksperimental rejissorluğa başlayır və 90-cı illərə doğru uğurlu tamaşa yozumları ilə diqqəti cəlb edir.

*I.Sadıqov R, Əliyeva Y. Qloballaşma və müasir dünya teatrı, Bakı: 2020*

**Rüfət Əliş oğlu QARAYEV,**

*ADMİU-nin "Teatr sənəti" fakültəsinin magistrantı*